# Azərbaycan musiqiçiləri Beynəlxalq Akkordeon Festivalında

Azərbaycan musiqiçiləri Vyanada Beynəlxalq Akkordeon Festivalında ilk dəfə konsert proqramı ilə iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın görkəmli musiqiçisi, Xalq artisti Ənvər Sadıqovun rəhbərlik etdiyi "Qaytağı" instrumental ansamblı festival çərçivəsində Vyana şəhərinin məşhur "Porgy & Bess" caz klubunda konsert verib.

Konsertdən öncə elan edilib ki, martın 26-dək keçiriləcək sayca 24-cü Beynəlxalq Akkordeon Festivalı dünyanın müxtəlif ölkələrindən peşəkar və yeni istedadları bir araya gətirir, bir ay boyunca Vyanada müxtəlif məkanlarda konsertlər təşkil edir. Builki festivalın xüsusiyyətlərindən biri isə ilk dəfə olaraq Azərbaycanın bu festivalda təmsil olunmasıdır, uğurlu əməkdaşlıq və dəstəyə görə Azərbaycan Mədəniyyət Mərkəzinə xüsusi təşəkkür elan edilib.

Vyanada musiqisevərlərin sevimli məkanları sırasında yer alan və anşlaqla keçən konsertdə, həmçinin, görkəmli caz pianoçusu və bəstəkar, beynəlxalq müsabiqələr laureatı Emil Əfrasiyab da iştirak edib. Konsertdə Azərbaycan xalq və bəstəkar mahnıları əsasında hazırlanmış kompozisiyalarla yanaşı, Ənvər Sadıqov və Emil Əfrasiyabın müəllifi olduğu əsərlər də böyük maraqla qarşılanıb. Dahi bəstəkarlar Volfqanq Amadeus Motsart və Üzeyir Hacıbəylinin əsərləri əsasındakı kompozisiya isə alqışlara səbəb olub. Konsertə Azərbaycan bəstəkarları Qara Qarayev və Rauf Hacıyevin əsərlərindən ibarət kompozisiyalar ilə yekun vurulub.

**525- ci qəzet.- 2023- cü il.- 2 mart.- S. 9.**